İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

31 OKTYABR 2021-Cİ İL №020 (143)

Səh. 2 HALLÜSİNASİYALI HƏYAT- İBRAHİMXƏLİL YAZIR

Səh. 3 HAQQ SAHİBİNƏ HAQQINI VER!- HACI BƏKİROĞLU YAZIR

Səh. 4 8716 TƏCRÜBƏÇİ MÜƏLLİMDƏN 1079-U STATUSUNU YÜKSƏLDƏ BİLİB

Səh. 5 ÇİÇƏK QƏDƏR TƏRAVƏTLİ OLAN GƏNCLİK - LAMİYƏ HACIYEVA YAZIR

Səh. 5 CƏMİYYƏTDƏ QADIN VƏ KİŞİ - VÜQAR VƏKİLOĞLU YAZIR

Səh. 6 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - AFİQ MUXTAROĞLU YAZIR

Səh. 7 “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ

## GÜRCÜSTAN STRASBURQ MƏHKƏMƏSİNDƏ RUSİYANI YENƏ UDUB



Avropa İnsan Hüquqları Məhkəməsi 2008-ci il müharibəsi ilə bağlı Gürcüstana qarşı iki iş üzrə qərarını açıqlayıb. Bu barədə Gürcüstanın Ədliyyə Nazirliyindən bildirilib.

Strasburq məhkəməsi “Bekoyeva və digərləri Gürcüstana qarşı” və “Şavloxova və digərləri Gürcüstana qarşı” işləri üzrə müraciətləri qəbuledilməz hesab edib.

Şikayətlərdə Tsxinvali bölgəsinin sakinləri Gürcüstanı ittiham ediblər. Avropa Məhkəməsi isə Rusiyanın Tsxinvali bölgəsini aktiv şəkildə bombalaması, Gürcüstan Silahlı Qüvvələrinin region və ətrafına nəzarət həyata keçirə bilməməsi ilə bağlı rəsmi Tbilisi tərəfinin arqumentləri ilə razılaşıb. Bu səbəbdən Gürcüstan tərəfinə hər hansı bir pozuntunu aid etmək mümkün olmayıb.

Strasburq məhkəməsi həmçinin Gürcüstan tərəfinin ittihamların açıq şəkildə əsaslandırılmamış olması ilə bağlı arqumenti ilə də razılaşıb, belə ki, iddialara minimum standarta uyğun sübutlar əlavə edilməyib.

Qeyd edək ki, bu il Gürcüstan artıq ikinci dəfədir Avropa Məhkəməsində Rusiyanı udur. Belə ki, yanvarın 21-də məhkəmənin “Gürcüstan Rusiyaya qarşı” iş üzrə qəbul etdiyi qərara əsasən, Rusiya 2008-ci ilin avqustundakı müharibə zamanı gürcülərə qarşı etnik təmizləmə həyata keçirib.

## DTX: DÖVLƏT ÇEVRİLİŞİNƏ HAZIRLIQ PLANLAŞDIRILIB

Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) keçirilən brifinqdə Gürcüstanda dövlət çevrilişinə hazırlıqla bağlı planlar olduğu bildirilib.

Qeyd olunub ki, üçüncü prezident Mixeil Saakaşvilinin tərəfdarları dövlət əleyhinə hərəkətlər həyata keçirmək niyyətində olublar. Onlar sabiq dövlət başçısının xəstəxanaya və ya digər həbsxanaya köçürüləcəyi halda yolları bağlamaq, xaos və nəzarət olunmayacaq vəziyyət yaratmaq barədə düşünüblər.

DTX bu planların müzakirə olunduğunu sübut edən səsyazısı da təqdim edib.

Faktla bağlı Cinayət Məcəlləsinin Konstitusiya quruluşunun zorla dəyişdirilməsi, dövlət çevrilişi, hakimiyyətin ələ keçirilməsinə yönələn hərəkətlər maddəsi üzrə istintaq aparılır.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 10 MİNİ ÖTÜB




Oktyabrın 31-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 10 089 nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 721 388 nəfər, sağalanların sayı isə 665 599 nəfər olaraq göstərilib.

Oktyabrın 31-nə kimi ölkədə 1 978 857 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 33 nəfər, stasionar nəzarətdə 6 575 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı 1 091 nəfə olaraq göstərilib.

## GÜRCÜSTAN, TÜRKİYƏ VƏ AZƏRBAYCAN PARLAMENTLƏRİNİN XARİCİ ƏLAQƏLƏR KOMİTƏLƏRİ RƏHBƏRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLİB



Ankarada Gürcüstan, Azərbaycan və Türkiyə parlamentlərinin xarici əlaqələr komitələri rəhbərlərinin IX üçtərəfli görüşü keçirilib.

Oktyabrın 18-i keçirilən toplantıda əsas müzakirə mövzuları regional əməkdaşlığın əsas istiqamətləri, Qara dəniz bölgəsində mövcud problemlər və onların həlli yolları, parlamentlərarası əlaqələrin gücləndirilməsi və üçtərəfli əməkdaşlığı möhkəmləndirəcək yeni təşəbbüslər olub.

İclas çərçivəsində Gürcüstan parlamentinin üzvləri Türkiyə Böyük Millət Məclisində Dostluq Qrupunun üzvləri ilə görüş keçiriblər. Tərəflər Gürcüstanın işğal altında olan ərazilərində vəziyyət, iqtisadi əlaqələrin dərinləşdirilməsi imkanları və Türkiyənin Gürcüstanı NATO-ya inteqrasiya yolunda dəstəkləməsi məsələləri nəzərdən keçirilib.



# HALLÜSİNASİYALI HƏYAT

İBRAHİMXƏLİL

Sonra həkim soruşur:

– Qulağınıza səslər gəlir? Qarabasmanız varmı, gözünüzə nəsə görünürmü?

Əgər bunlar varsa – iraq, iraq! – deməli, hallüsinasiyaya tutulmuşsan və dərdinə çarə qılmaq yoluna çıxmalısan.

Tibb elminə aid latın əsilli *"hallucination"* sözü də dilimizdə elə "gözəgörünmə", "qarabasma" anlamlarını verir. Çünki hallüsinasiyaya tutulan xəstələrdə *yanlış qavrayış* üstünlük təşkil edir. Onlar öz qavrayış hissinə əmindirlər. Onlara belə gəlir ki, gördükləri və düşündükləri qeyri-real hadisələr ətraf mühitdə doğrudan da mövcuddur.

Lap bu yaxınlara qədər qələm dostlarımdan biri iddia edirdi ki, "hallüsinasiya" sözü əslində latın əsili deyil, türk əsilli olmalıdır. Dostuma görə, bir halda ki, "hallüsinasiya"nın kökü "hal"dır, bir halda ki, bizdə də bu qədər "hal" köklü söz və ifadə var – məsələn, hal aparmaq, hal əhli, haldan-hala düşmək, halına ağlamaq və sairə – onda niyə də olmasın?

Əsrlər boyu başın sağlamlığı – dünyanın varlığı hesab edilib. Buna görə də başı qorumaq şərti başdan gəlməlidir. Nə isə...

İnsan münasibətlərinin psixologiyasında iddia edilir ki, tibbdə imperativ hallüsinasiya kimi qəbul edilmiş: beyindən çıxmayan zəhlətökən-qarayaxa, təngəgətirən fikirlər, verbal yalan, təlqin, əmr xarakterli hallüsinasiyalar hətta bəzi imperatorlarda, məşhur din xadimlərində, ünlü sənət adamlarında da müşahidə edilmişdir. Uca Yaradanın altından hara qaça bilərsən?

Babası məşhur gürcü şairi Qalaktion Tabidzenin həkimi olmuş, özü isə qələm dostum Mirzə Qələmə də təbiblik etmiş hörmətli N.V. (adının çəkilməməyini özü istədi – İ.) Mirzə Qələmlə bağlı sorğuma belə cavab vermişdi:

– Xəstəliklər gəlir və gedir. Amma əgər yaradıcı insanın ruhu ***xurafatçı***dırsa, deməli, ona dinclik yoxdur – və əlavə eləmişdi – Sizin dostunuzda buralarda az təsadüf edilən bir Stendal sindromu da var. Stendal sindromu xəstəliyi məşhur yazıçının adı ilə adlandırılıb. Bu, psixosomatik xəstəlik olaraq, xüsusilə gözəl bir sənət əsərinə baxarkən ürək döyüntülərinin artması, qarabasma, çaşqınlıq və başgicəllənmə ilə müşayiət olunan prosesdir. Florensiyanın *Basilica of Santa Croce* kilsəsinin gözəlliyi qarşısında oxşar hisslər keçirmiş Stendalın adı da məhz bu səbəbdən həmin xəstəliyə verilib. Gördüyünüz kimi, bəzən yaradıcı insanlara dəlicəsinə gözəllik vurğunu olmaq da zərər gətirir.

Həkimin qeydləri nələrəsə işarəmi idi? Bilmirəm. Amma dərhal da bir dahinin sözləri yadıma düşmüşdü: "Dəlixanadan buraxıldınsa, bu, hələ tam müalicə olunduğun anlamına gəlməz. Sadəcə, hamı kimi oldun, vəssalam"!

Bəlkə də daha çox hallüsinasiyalı adama görə, bax, məhz burası dəhşət saçır: *hamı kimi olmaq*. Sənət adamı elə hamı kimi olmaqdan qaçmağa çalışır. Hamı kimi olmaq ona bəzi... psixi travmalar gətirir. İndi gəl bu qədər oxşar xəstə informasiyalar əsrində, bu qədər işsizlər ordusunda başı salamat saxla! Xəstəliksiz yaşa! Başqalarına da hər şeydən öncə psixi sağlamlıqlar dilə!

Ən maraqlı və diqqətçəkən isə budur: tibbdən az-az arazbarı fərqli olaraq, bədii ədəbiyyatda bambaşqadır!

Məsələn, F.M.Dostoyevskidə, onun bəlkə məzarımızda da oxunacaq əsərlərində!

Psixoanalizin banilərindən sayılan F.Nitsşe onun haqqında yazmışdı: "F.M.Dostoyevski mənim psixoanaliz haqqında ondan öyrəndiyim yeganə insandır. O, mənim həyatımın ən böyük sevincidir".

Bədii ədəbiyyatda hallüsinasiyanı bir formul, bir düstur şəklinə çevirən Dostoyevski! Ədəbiyyatın Məcnunlar Məcnunu! Hədsiz dərəcədə, ***dəli***cəsinə sevən! Onun ədəbi qəhrəmanlarının vaqifi-əsrar, pünhan nidalarlı-nöqtələrli fantasmaqoriyaları... Məgər insan qəlbinin dərin guşələrindən, dərin dəryalarından, qat-qat ağıl dünyasından "analizlər" almaq, qan analizi, vərəm, sidik, şəkərlilik, tromb analizləri almaqdan qat-qat çətin, həm də ağrılı deyilmi?!

Həyatın dolanbaclarında azmamağı, itkin olmamağı saxlamaq, uçurumlardan, əxlaqi "cinayətlər"dən uzaq tutulmağı bacarmaq, Xeyirlə Şər arasında doğru seçim etmək! Dünyadan, külldən, Rayner Mariya Rilkedən, Vaqif Bayatlıdan, Şeyx Nəsrullahdan və "Kefli" İskəndərdən, Parisdən, Tiflisdən və Təbrizdən, çiçəklərdən, kanalizasiya borularından öncə özünü təhlil eləməyi bacarmaq! Təhlil demiş, bu yerdə gərək Z.Freydin F.Nitsşe haqqında söylədiyini də çatdıram. Z.Freyd: *"Nitsşeyə qədər heç kim özünü təhlil etməyi bu qədər yaxşı bacarmamışdı və çox güman ki, bacaranlar da bir daha çətin tapılsın"* – demişdi.

P.S.

...Arada-sırada ustadlar ustadı Mövlananın sözlərini zümzümə eləmək də adama nisgil qarışıq bir zövq gətirirmiş:

*Sən də sev səni sevəni – dağlarda çoban olsa da.*
*Sevmə səni sevməyəni – Misirdə sultan olsa da...*

...Amma nə sirdisə, filan padşahın səni sevməyən kiçik qızını fəsman sultanın oğluna versələr də... sən onu – o *kiçik qızı* sevməkdə davam edirsən...

Sevgisiz ömür olmasın!

Çünki hallüsinasiyalı həyatın öhdəsindən sevgi ilə gəlmək olur; özü də illüziyalar dolu sevgi ilə deyil, gerçək sevgi ilə!

## METYU BRAYZA: SAAKAŞVİLİNİN SAXLANILMASI AĞILLI SİYASİ ADDIM DEYİL



"Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilinin saxlanılması ağıllı siyasi addım deyil". Bunu "Atlantik Şurası"nın böyük elmi işçisi, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, beynəlxalq ekspert Metyu Brayza Gürcüstanın "Interpressnews" agentliyinə müsahibəsində deyib.

Onun sözlərinə görə, dünyada istənilən siyasi lider hərəkətlərinə görə cavabdehlik daşıyır: "Saakaşvili bilirdi ki, qərarı çox risklidir. Həbs olunacağını bilsə də, o, Gürcüstana qayıtmasını düzgün qərar hesab edib".

M.Brayza vurğulayıb ki, müxalifət liderinin və eyni zamanda, ölkənin keçmiş prezidentinin həbs olunması problem yaradır və dünya tərəfindən siyasi motivli həbs kimi qəbul edilir: "Bu, hökumətə bir sıra problemlər yaradır və ölkədə böhrana səbəb olur".

Qeyd edək ki, M.Saakaşvili oktyabrın 1-də Tbilisidə həbs olunub. Rustavidəki 12 saylı həbsxanada saxlanılan siyasətçi özünü siyasi məhbus adlandırır və azad edilməsini tələb edir. O, bu tələblə aclıq aksiyası keçirir.

## RUSİYA VƏTƏNDAŞLARININ GÜRCÜSTANDA DAŞINMAZ ƏMLAK ALMASINA QADAĞA QOYULA BİLƏR




Rusiya vətəndaşlarının Gürcüstanda daşınmaz əmlak almasına qadağanın qoyulması təklif olunur. Bu barədə yerli "Business-PressNews" nəşri yazıb.

Müvafiq təkliflə qanunverici orqana Gürcüstan vətəndaşı Mamuka Qvadzabia müraciət edib. Onun sözlərinə görə, Rusiya Gürcüstan ərazilərini işğal altında saxladıqca bu ölkənin vətəndaşlarının Gürcüstanda daşınmaz əmlak alması/qeydiyyatı qadağan edilməlidir.

Parlament bürosunun qərarı ilə Prosedur məsələlər və qaydalar Komitəsinə qanunvericilik təşəbbüsünü nəzərdən keçirmək tapşırılıb. Bundan sonra büro məsələ ilə bağlı qərarını açıqlayacaq.

Nəşrdə qeyd olunub ki, son illər ərzində Rusiya vətəndaşlarının Gürcüstanda əldə etdiyi daşınmaz əmlakların sayı barədə dəqiq məlumat yoxdur. Lakin 2019-cu ilin məlumatına əsasən, Gürcüstanda son 4 il ərzində xarici ölkə vətəndaşlarının qeydiyyata aldığı daşınmaz əmlakların 40 %-i Rusiya vətəndaşlarının payına düşür.

## NƏRİMAN NƏRİMANOV ADINA PARK TƏMİR EDİLİR



Marneuli rayonunun mərkəzi Rustaveli küçəsində yerləşən Azərbaycanın görkəmli ictimai-siyasi xadimi və böyük ədibi Nəriman Nərimanovun adını daşıyan parkda bərpa işləri aparılır.

İşlər Gürcüstan hökumətinin "Yenilənən bölgələr" proqramı çərçivəsində həyata keçirilir.

Təmir və yenidənqurma işlərinin bu ilin sonunda və ya gələn ilin əvvəlində tamamlanması nəzərdə tutulub.

Qeyd edək ki, parkda 1983-cü ildə ucaldılan N.Nərimanovun abidəsi ötən ilin mayında əsaslı şəkildə bərpa olunub. İstirahət məkanı isə uzun illər baxımsız vəziyyətdə qalıb.

N.Nərimanov Marneulidə yaşadığı illərdə böyük xidmətlər göstərib. O, rayonun Qızılhacılı kəndində bir neçə il müəllim və həkim kimi fəaliyyət göstərib. Sakinləri ödənişsiz müayinə edib, xeyriyyəçilik fəaliyyəti ilə məşğul olub. Qızılhacılı kənd məktəbi də vaxtilə onun adını daşıyıb.

## TÜRKİYƏ GÜRCÜSTANLA BİRGƏ HƏRBİ MÜƏSSİSƏNİN YARADILMASINI MÜZAKİRƏ EDİB



Türkiyənin "TUSAŞ" şirkətinin nümayəndə heyəti Gürcüstanda səfərdə olub.

Şirkətin baş direktoru Temel Kotil və vitse-prezidenti Atilla Doğan Tbilisi Aviasiya Zavoduna baş çəkib.

Nümayəndə heyətini Gürcüstan müdafiə nazirinin müavini Zurab Azaraşvili və müəssisənin direktoru Mixeil Oğlişvili müşayiət ediblər.

Tərəflər Gürcüstan və Türkiyə arasında birgə müəssisənin yaradılması və hərbi-hava sənayesinin inkişafına yönəlmiş gələcək planları müzakirə ediblər.

Qeyd edək ki, Tbilisi Aviasiya Zavodunda hərbi təyyarələr müasir standartlara uyğun bərpa, təmir olunur və modernləşdirilir.

## DAVİD ZALKALİANİ: "QONŞU ÖLKƏLƏRLƏ MÜNASİBƏTLƏRİN DƏRİNLƏŞDİRİLMƏSİ ƏSAS PRİORİTETLƏRDƏNDİR"



"Gürcüstan üçün strateji tərəfdaşları – ABŞ və Avropa İttifaqı ölkələri, həmçinin qonşu ölkələrlə münasibətlərin dərinləşdirilməsi əsas prioritetlərdəndir". Bunu hakim Gürcü Arzusu Partiyasının mitinqinə qatılan baş nazirin müavini, xarici işlər naziri David Zalkaliani "İmedi" telekanalına açıqlamasında deyib.

O, regionda sülhü də Gürcüstanın əsas prioriteti adlandırıb.

D.Zalkalianinin sözlərinə görə, Gürcüstan təhlükəsizlik, işğal, bölgədə təhlükələrlə bağlı bir sıra təhdidlərlə üzləşir: "Ölkəyə birlik, sabitlik və iqtisadiyyatın bərpası əvvəllər olmadığı qədər çox lazımdır".

XİN başçısı qeyd edib ki, 2024-cü ildə Gürcüstan Avropa İttifaqına üzvlüklə bağlı müraciət təqdim edəcək: "Lakin bu, prosesin sonu deyil. Məqsədimiz Aİ və NATO-ya üzv olmaqdır".

## GÜRCÜSTAN-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN ÜZVLƏRİNİN SAYI ARTIRILIB



Gürcüstan parlamentində Azərbaycanla dostluq qrupuna 38 deputat əlavə olunub.

Bununla bağlı qərarı qanunverici orqanın plenar iclasında 94 deputat dəstəkləyib.

Qərarla qrupda təmsil olunan parlament üzvlərinin sayı 77-yə çatıb.

Qeyd edək ki, Xarici əlaqələr və Regional siyasət komitələrinin sədrləri Nikoloz Samxaradze və Sozar Subari, azərbaycanlı deputatlar - Zaur Darğallı, Savalan Mirzəyev və Abdulla İsmayılovun da təmsil olunduğu qrupa vitse-spiker Arçil Talakvadze rəhbərlik edir.

## HAQQ SAHİBİNƏ HAQQINI VER!



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

İnsan həyatını davam etdirə bilməsi üçün insanlarla həm maddi, həm də mənəvi baxımdan qarşılıqlı əlaqə içərisində olmağa möhtacdır. Yəni ictimai münasibətlər qurmaq məcburiyyətindədir. Bu səbəblə də dinimiz cəmiyyət olaraq bir yerdə yaşamağı asanlaşdıracaq ərdəmlər və çəkinilməsi lazım olan bəzi qaydalar tətbiq etmişdir. Bu qaydalara görə, insanın özü qədər başqalarını da diqqətə alması, sərhədlərinin fərqində olması və cəmiyyət içərisində ona görə hərəkət etməsi lazımdır. İslam dininin gətirmiş olduğu bu qaydalardan biri, hətta ən əhəmiyyətlilərindən biri də qul haqqıdır. Qul haqqı maddi olduğu kimi, mənəvi yöndən də ola bilər. Hz. Peyğəmbərin "Allahın hüzuruna heç kimə haqsızlıq etmədən çıxmağı ümid edirəm" (Ebu Davud, Büyu, 49) diləyi qul haqqı mövzusunda əhəmiyyətli bir xəbərdarlıq xüsusiyyətindədir. Yuxarıda da vurğuladığımız kimi, bizlər sosial bir varlığıq və cəmiyyət şəklində yaşayırıq. Bu vəziyyətdə insanın xətası qaçılmazdır. Ancaq bəzi hallar da vardır ki, bilərəkdən bu haqları pozuruq. Məsələn, ticarət əsnasında çəkidə az çəkirik, ölçüdə qısa ölçürük, və ya ödənişi az ödəyirik. Bəzən də malı dəyərindən baha qiymətə satmağa çalışırıq. Bunlar qul haqqına girməkdir. Bir mağazada, aptekdə, dayanacaqda başqasının sırasını qəsb edərək onun yerinə keçmək də qul haqqıdır. İşçinin ödənişini kəsmək və ya vaxtında verməmək yenə bir haqq pozuntusudur. Ödənişlə verdiyimiz bir dərsin saatını doldurmadan dərsə son vermək ödəniş sahibinin haqqını yeməkdir. Bir şagirdə layiq olduğu qeydi göstərməmək haqsızlıqdır. Qonşumuzu səs-küylə narahat etmək, birinin dedi-qodusunu etmək də qul haqqını pozmaqdır.

Bir gün Allah Rəsulu səhabələrindən: "Müflis kimdir, bilirsinizmi?" deyə soruşur. Səhabələrdən bəziləri: "Bizim aramızda müflis pulunu və malını itirən kimsədir" deyirlər. Bunun üzərinə Rasulullah (s.ə.s.) buyurur ki: "Şübhəsiz ki, ümmətimin müflisi qiyamət günü namaz, oruc və zəkat savablarıyla gələr. Lakin ona-buna söymüş, kimilərinə zina böhtanı etmişdir. Bəzi kəslərin malını yeyib, bəzilərinin qanını tökmüşdür. Kimilərini də döymüşdür. Belə birinin yaxşılıqlarının savabları haqq sahiblərinə verilincə üzərindəki qul haqları bitmədən savabları bitər. Bu səfər haqq sahiblərinin günahları özünə yüklənərək cəhənnəmə atılar. Bax müflis budur" (Müslim, Birr, 59).

Bu hədis başda yaxın əlaqə içində olduğumuz ailəmiz, qohumlarımız və qonşularımız olmaq üzrə din qardaşlarımıza və insanlığa qarşı məsuliyyətlərimizi yerinə yetirərkən göstərməyimiz lazım olan həssaslığı bizə xatırlatmaqdadır.

Qul haqqı mövzusundakı həssaslıqlar dünya həyatıdakı hüzuru təmin etdiyi kimi, axirət xoşbəxtliyinin də təminatıdır. Əliylə, diliylə, gözüylə və sözləriylə başqalarını incitməyin qul haqqına girmək olduğunu bilən əlinə, dilinə, gözünə və könlünə sahib olar. Başqalarını narahat etmədən əlindəki imkanları istifadə edə bilmə bacarığı bu həssaslığı qazanmağa bağlıdır. Çünki etdiklərinin başqalarını incidəcəyini düşünməyən kimsə asanlıqla qul haqqına girər.

Sevimli Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s.) bu mövzudakı digər bir hədisində də qul haqqını belə izah etməkdədir: "Üzərində qul haqqı olan, ölmədən əvvəl ödəyib halallaşsan! Çünki axirətdə qızılın, malın dəyəri olmaz. O gün haqq ödənənə qədər öz savablarından alınar, savabları olmazsa haqq sahibinin günahları buna yüklənər" (Buxari, Rikak, 48).

Çox diqqət göstərməyimizə baxmayaraq bir insanın haqqına girmişiksə o insana haqlarını qaytararaq halallaşmağımız, heç bir dünya nemətinin fayda verməyəcəyi hesab günü gəlmədən əvvəl edə biləcəyimiz ən uyğun davranış olacaq.

# MƏN VƏ CƏMİYYƏT FƏNNİNİ KİM TƏDRİS ETMƏLİDİR? – PEDAQOQLAR ARASINDA NARAZILIQ




Mən və cəmiyyət fənni ibtidai sinifdə tədris olunur və əksər hallarda müəllimlər arasında narazılığa səbəb olur. Çünki sertifikatı olan ibtidai sinif müəllimləri hesab edirlər ki, fənnin saatları onlara verilməlidir. Mən və cəmiyyət fənninin pedaqoqları isə bildirirlər ki, fənni yalnız onlar tədris etməlidirlər.

**Kim doğrudur və bu fənnin tədrisi üçün əməkhaqqı kimə məxsusdur?**

*III-IV siniflərdə tədris olunan mən və cəmiyyət fənni, yeni tədris planına əsasən, sosial elmlərin fənn qrupuna aiddir. Onunla birlikdə siyahıda sonrakı vacib fənlər də var:*

- Bizim Gürcüstan (V-VI siniflərdə tədris olunur);
- Gürcüstan və dünya tarixi (VII-XII siniflərdə tədris olunur);
- Coğrafiya (VII-VIII siniflərdə tədris olunur);
- Gürcüstan coğrafiyası (IX sinifdə tədris olunur);
- Dünya coğrafiyası (X sinifdə tədris olunur);
- Qlobal problemlər coğrafiyası (XI sinifdə tədris olunur);
- Vətəndaş təhsili (VII-X siniflərdə tədris olunur).

Bildiyiniz kimi, saatlar ilk növbədə baş, aparıcı və mentor müəllimlər arasında bölünür. Onlara tam qrafik verilməlidir ki, minimum 15 saat üçün əməkhaqqı ala bilsinlər. Əgər məktəbdə statusu olan vətəndaş təhsili, tarix, yaxud coğrafiya müəlliminin tam qrafik üçün saatları çatışmırsa, direktorun mən və cəmiyyət fənnini ona vermək hüququ var ki, müəllimə statusuna uyğun olaraq əməkhaqqı tam verilsin.

Əgər ictimai elmlər fənn qrupu müəllimlərinin əməkhaqqı almaq üçün kifayət qədər saatı varsa, bu halda sertifikatı olan ibtidai (I-IV) sinif müəllimlərinin mən və cəmiyyət fənnini tədris etmək hüququ var.

İlk əvvəl, Təhsil və Elm Nazirliyi bu fənnin tədrisinə qərar verəndə, mən və cəmiyyət fənnini sinif rəhbəri tədris etməli idi. İndi isə qərar dəyişib və saatlar, ilk növbədə fənn qrupu pedaqoqlarına bölünür.

Müəllimlər deyir ki, fənn elə mövzulardan ibarətdir ki, bu daha çox sinif rəhbərinin proqramıdır. Ancaq vətəndaş təhsili fənninin sertifikatlı müəllimləri saatlardan imtina etməyi düşünmürlər.

Əgər III-IV sinif rəhbəri ibtidai ilə yanaşı vətəndaş təhsili, tarix, yaxud coğrafiya fənni üzrə sertifikatlı müəllim olarsa, bu halda onun mən və cəmiyyət fənnini tam tədris etmək hüququ var.

Bu gün məktəblərdə qeyd olunan fənni ibtidai sinif müəllimləri də tədris edir. Onlara müvafiq təlimlər keçirilib və tədris hüququ verilib. Ancaq saatlara uyğun olaraq tam əməkhaqqı yalnız fənn qrupu pedaqoqlarına məxsusdur.

# "BU KOSMETİK DƏYİŞİKLİKDİR VƏ GERİ QAYIDIRIQ" – MAIA MİMİNOŞVİLİ 2022-Cİ İLİN MİLLİ İMTAHANLARINDAN DANIŞIB

Milli imtahanların keçirilməsi qaydasında dəyişiklik edilib. 2022-ci ildən abituriyentlərin istədikləri təhsil proqramlarında təhsillərini davam etdirmək üçün konkret proqramda müəyyən edilmiş münasib fənn seçmək imkanı olacaq. Üçüncü vacib – seçilən fənnə, riyaziyyat və tarixə əlavə olunacaq fənlər bunlardır: ədəbiyyat, fizika, kimya, biologiya, coğrafiya, təsviri və tətbiqi incəsənət, vətəndaş təhsili. Ancaq abituriyentlər yenidən üç fənnə əsasən qəbul olunacaqlar.

Gürcü dili və ədəbiyyatı, coğrafiya imtahanı testlərində də dəyişiklik edilib. Hələ ki, bunların abituriyentlər üçün hansı nəticə verəcəyi, yaxud ümumilikdə sistemin hansı problemlər qarşısında qalacağı aydın deyil.

Məsələ ilə bağlı "etaloni.ge" Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzinin ilk rəhbəri Maia Miminoşviliyə müraciət edib.

**"Bu təşəbbüsü yenilik adlandırmazdım. Bir neçə il əvvəlki vəziyyətə qayıtdıq. Bu seçimi abituriyentin əlindən almaq elə əvvəlcədən səhv qərar idi. İndi isə bu yalnız kosmetik dəyişikliklərdir. Bu seçim kimin üçündür? Abituriyentlərə aksent edilib, ancaq təəssüf ki, sifarişçinin ali təhsil müəssisəsi olduğunu unuduruq.**



**Onların necə abituriyent qəbul etmək istədiyini nəzərə almalıyıq. İkinci faktor budur ki, əgər geri dönürüksə və həmin formanı təklif ediriksə, o zaman ümumi qabiliyyət imtahanının çıxarılması anlaşılmazdır. Ali təhsil müəssisəsi üçün akademik bacarıqlarını formalaşdırmış tələbə qəbul etmək mühümdür?! Bu səhv addımdır və yaxşı olardı ki, daha çox düşünsünlər. Unutmayaq ki, Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi ali təhsil müəssisələrinə xidmət göstərir. Bundan əlavə, imtahan sistemi nə qədər geniş və çətin olarsa, şəffaflığı qoruyub saxlamaq da bir o qədər çətindir. Bu dəyişiklik zamanı qrantın nə dərəcədə ədalətli şəkildə bölünəcəyi mühümdür. Bunların hamısından irəli gələrək, mən kosmetik deyil, təməlli islahata ehtiyac olduğunu görürəm"**, - deyə Maia Miminoşvili bildirib.

# 8716 TƏCRÜBƏÇİ MÜƏLLİMDƏN 1079-U STATUSUNU YÜKSƏLDƏ BİLİB



Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzindən "etaloni.ge"yə verilmiş məlumata əsasən, 2021-ci ildə kompetensiya təsdiqləmək üçün imtahanı verdikdən sonra, sentyabrda 1079 təcrübəçi müəllim statusunu yüksəldib.

Qeyd etmək lazımdır ki, 8716 təcrübəçi müəllim imtahana qeydiyyatdan keçib, onlardan 6932-si imtahanda iştirak edib.

Mərkəzin verdiyi məlumata görə, çox sayda müəllim fənn və peşə ixtisasını təsdiqləyib, buna baxmayaraq statuslarını yüksəldə bilməyiblər.

Müəllimlər Evinin verdiyi məlumata əsasən:

**2021-ci ildə 2169 təcrübəçi müəllim fənn kompetensiyasını təsdiqləyib:**

1 kredit – 1041 təcrübəçi müəllim;
4 kredit – 538 təcrübəçi müəllim;
7 kredit – 328 təcrübəçi müəllim;
10 kredit – 262 təcrübəçi müəllim.

**Peşə kompetensiyasını 1720 təcrübəçi müəllim təsdiqləyib:**

1 kredit – 1030 təcrübəçi müəllim;
4 kredit – 404 təcrübəçi müəllim;
7 kredit – 178 təcrübəçi müəllim;
10 kredit – 108 təcrübəçi müəllim.

## SİNİFDƏ ŞAGİRDLƏRİN SAYI NƏ QƏDƏR OLMALIDIR?

Siniflərdə şagirdlərin sayının qeyri-sabitliyi mühüm dəyişikliklərə səbəb olur. Məhz şagirdlərin sayının qeyri-sabitliyinə görə məktəb direktorları xoşagəlməz problemlərlə qarşılaşırlar. Elə hallar var ki, uşaqların sayının azalması sinfin dağılmasına gətirib çıxarır.



Bəs yeni təhsil planına əsasən, siniflərdə şagirdlərin sayı nə qədər olmalıdır?

Rəsmi sənədə əsasən, ictimai məktəbdə sinifdə şagirdlərin maksimum sayı 25 nəfər müəyyən edilib. Nazirliklə yazılı razılaşma nəticəsində istisnaya yol verilə bilər. Razılıq isə obyektiv vəziyyəti nəzərə almaqla konkret şagirdə verilir və bu, şagirdin həmin məktəbin növbəti sinfində təhsilini davam etdirməsinə aiddir. Belə halda şagirdlərin maksimum sayı 29-u keçməməlidir.

Paralel siniflərin olması isə hər paralel sinifdə şagird sayının minimum 15 nəfər təşkil etməsi halında yolverilləndir. Bu halda da şagirdlərin sayı ilə əlaqədar istisnaya nazirliklə razılaşma nəticəsində yol verilə bilər.

2014-2015-ci tədris ilinə qədər ictimai məktəbə qəbul olunmuş şagirdlər üçün isə qayda fərqlidir. Bu halda sinifdə şagirdlərin maksimum sayı 30 nəfər müəyyən edilib (burada da şagirdlərin maksimum sayı ilə əlaqədar istisnaya nazirliklə yazılı razılaşma əsasında yol verilir). Belə halda şagirdlərin maksimum sayı 35 nəfərdən artıq olmamalıdır. Hər paralel sinifdə şagirdlərin minimum sayı 18 nəfər olarsa, paralel siniflərin olması yolverilləndir.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*

Gürcü dilindən tərcümə etdi:
**Aynurə ƏLİYEVA**

# ÇİÇƏK QƏDƏR TƏRAVƏTLİ OLAN GƏNCLİK

İnsanoğlu özünü aldadıb boşuna giley-güzar etməyi nə qədər də sevir. Əlimizlə yıxdığımız, uçurub pərişan etdiyimiz gəncliyin gəldiyi vəziyyətlə necə də üzümüz qızarmadan giley-güzar etməyi bacarırıq.

Əlimizlə cırmadıqmı həya pərdəsini? Parça-parça edib atmadıqmı ayaqlar altına? "Mən edə bilmədim, uşağım etsin" sözlərini deyə-deyə gəncliyə zərbəni biz vurmadıqmı? "Başqaları edir, mənimki geridə qalmasın" sözlərini özümüzə qalxan edib, arxasına sığındıq. Əlbir olub gələcəyimiz olan gəncliyi yazıq etdik. Hətta sevinə-sevinə, qürurlana-qürurlana etdik bunu. İndi durub "zəmanə belədir, gənclərə söz keçirmək olmur, varı-yoxu anlamırlar" deyə giley-güzar edirik. Yanlış yolda olduğumuzu, gələcəyimizi düşünmədiyimizi dərk etmədik.

Üstünlüyü geyimdə, libasda, dəbdə gördük. Düşünmədik ki, libasla, geyimlə üstünlük olmaz, üstünlük libaslar içindəki insanların şəxsiyyətləri ilə bəlli olur. Görünüş, gözü boyamaq, gözdən pərdə asıb əsl görünməsi gərəkəni gizləməkdir. Haradan gəldiyi məlum olmayan libaslar içərisinə niyə gizlətdik ki, biz gəncliyin şəxsiyyətini? Niyə qoymadıq gələcək nəsil şəxsiyyəti ilə var olmağı bacarsın, görünüşü ilə deyil. Bu zərbəni biz vurduq gəncliyə, kənardan başqaları gəlib bu zərbəni endirmədi. Bizim əlimiz olmasa başqaları bunu edə də bilməzdi.

Bir məkana girərkən, bir məclisdə söz deyərkən görünüşlə qarşıdakıları aldadıb etibar qazanmağa çalışdıq, ancaq bu qədər çırpınmağa gərək varmı? Saf, təmiz gəncliyi buraxsaydıq var olduqları kimi saglam düşüncələri və təmizlikləri ilə ləyaqət, etibar qazanardılar, görünüşlə deyil.

İndi durub şikayətlənməyin, giley-güzar etməyin, bir faydası olmaz. Gələcəyə, gəncliyə zərbə üstünə zərbə vurduq, düşünmədik ki, bu zərbə özümüzə dönəcək, özümüz öz əlimizlə dönülməsi çətin olan yollara itələdik gənclərimizi.

Bu gündən sonra fəryadlar fayda verməz. Qarşısını almaq üçün yeni yollar, yeni metodlar düşünməliyik və ya bu yolla gedən gəncliyə baxaraq səssiz fəryadlar etməliyik. Seçim bizimdir, hələ də gec deyil. Gənclik gözəldir, gələcək gözəldir əslində. Gəlin gec olmadan çiçək qədər təravətli olan gəncliyimizi yanlış yönləndirmələrdən əlbir olaraq qurtaraq.



**Lamiyə HACIYEVA**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şöbəsinin sədri*

# CƏMİYYƏTDƏ QADIN VƏ KİŞİ

Yaxın günlərdə bir layihə çərçivəsində sorğu aparmaq üçün Borçalının dağ kəndlərindən birinə getmişdik. Suallarımızdan biri belə idi: "Qadın ailədə fiziki şiddət, yaxud özünə qarşı hörmətsizlik gördüyü ər evində övladlarına xətir yaşamağa davam etməlidirmi?" Cavab isə "əlbəttə, etməlidir" olmuşdur.

Müsahibimiz təxmin etdiyiniz kimi, kişi idi (yaxud yaşlı qadın da ola bilərdi, qaynana rolundakı qadın), pensiyaya çıxmış kişi. Həm də bu kişi müəllim idi. Suallarımızdan bir qismi xatalı olduğu üçün sorğunu davam etdirməyə çəkindik, bu öz yerində. Burada bir şeyi aydınlaşdırmaq lazımdır ki, qadın ailədə fiziki və yaxud mənəvi şiddət görürsə mütləq ailə həyatını dağıtmalı deyil. Burada məsuliyyət əvvəlcə kişiyə düşür. Kişi anlamalıdır ki, ailədə yaranan anlaşılmazlıqları qaydasına salmaq və özünü düzəltmək məsuliyyəti onun üzərinə düşür. Əslində isə, istər qadın olsun, istər kişi, bir-birinə hörmət qoymağı ailə həyatına başlayanda ən başdan bacarmalıdır. Çünki bir dəfə bu hörmət bağı qırıldımı, bu bağ təkrar birləşdirilsə belə əvvəlki kimi olmayacaq. İnsan beyninin hissələrindən olan amiqdala bu təzyiqə bir dəfə məruz qaldımı, artıq bu təsiri ömür boyu özündə saxlayır. Yəni qarşısındakı insanı bir dəfə düşmən olaraq etiketləyir və bu etiketi silməsi mümkünsüzlük dərəcəsində çətin olur. Buna ürək sınması da demək olar, ulduzun barışmaması da...

Mütəxəssislər qeyd edir ki, fiziki və mənəvi şiddət şəraitində böyüyən uşaqlar da gələcəkdə, ailə həyatına başlayanda bu fiziki və mənəvi şiddət halını davam etdirir. Qadındırsa öz uşaqlarını döyür, kişidirsə xanımını döyür və bu hal nəsillər boyu davam edir, ta ki, bu nəsildən hər hansı bir şəxsin maariflənmə səviyyəsinə çatana qədər.

Məlumdur ki, insanlarımız tez ailə qurur, ata, yaxud ana olmağa tələsir, həyatın mənasını ata və ana olmaqdan ibarət sayır, həyatlarını yeknəsək yaşayır və gələcəkdə onların övladları da bu yeknəsəkliyi davam etdirir. Gənc və yeniyetmə qızlar təhsil almağa həvəsləndirilmir. Yalnız oğlan övladı təhsil almağa hazırlaşdırılır.

Çox təəssüf ki, təhsil alan gənclərimiz də, istər qız olsun, istər oğlan, seçdiyi ixtisas üzrə işləyə bilmir və evlənir, yaşayışını qaldığı yerdən davam etdirir, özünü inkişaf etdirmək barədə fikirləşmir. Ancaq yüksək səviyyədə təhsil alıb, yüksək maaşlı işlərdə işləməyə başlayan qızlarımız da var və bu qızlarımızın da bir qismi ailə həyatı qurduqdan sonra bu ailə həyatını davam etdirmir. Bu da, təbii ki, pul qazanmağı bacarmağı səbəbindəndir. Bu qızlarımız evlənməyi övlad sahibi olmaq üçün bir vasitə kimi seçirlər. Ailə həyatına son qoyduqdan sonra belə öz övladını saxlayıb böyüdə bilir və ərə ehtiyac duymur. Ər onun üçün övlad sahibi olmağa bir vasitə olur sadəcə olaraq. Təbii ki, əvvəlcə qeyd etdiyimiz kimi, bu da effektiv bir həyat tərzi deyil. Bu öz yerində.

Əvvəlki mövzumuza gəldikdə isə, qeyd etmək lazımdır ki, insanlarımızın ən ali məqsədləri övlad sahibi olmaqdır. Bundan daha ali məqsədləri övladı böyüdüb evləndirməkdir. Bundan da alisi isə övladın övladını görmək, ya da nənə, baba olmaqdır. Əlbəttə, nəslin davamı üçün ata-ana da olmaq lazımdır, nənə-baba da, ancaq məqsəd sadəcə bundan ibarət olmamalıdır.

İnsanlarımız kitab oxumağa gərəksiz bir şey kimi baxırlar. Bir çoxları isə teatr deyilən şeyin sadəcə adını eşidiblər və nə olduğunu da bilmirlər. Bir yaxınımızın yaşadığı məntəqədə kitabxana açmışdılar və bu yaxınımız bunun gərəksiz bir şey olduğunu, ondansa bir iş yeri açmağın daha yaxşı olduğunu deyirdi. Nə bilim vallah... insanlarımız övladı böyüdüb evləndirməyə, nənə-baba olmağa niyə tələsirlər? Ondansa onlara xeyirli vərdişlər öyrədə bilərlər. Mən bu yazı ilə kimisə dəyişdirmək iddiasında deyiləm. Onsuz da bu mövzudan xeyli yazanlar olub. Mənimki isə bir xatırlatmadır. Xeyirlisi.



**Vüqar VƏKİLOĞLU**



# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## TƏBİƏTİN VƏ TARİXİN HARMONİYASI

## 4. KANALLARIN YARATDIĞI GÖZƏLLİK

*(əvvəli ötən sayda)*

Yer kürəsinin dörd bir səmtində insan əlinin yaratdığı, möhrünü basdığı möcüzələrə rast gələ bilərik. Amsterdam kanallarını da insan əlinin yaratdığı möcüzələrdən biri saymaq olar. Kanalların şəhərlə uzlaşması o qədər ideal şəkildə baş tutub ki, bunun təbiət gözəlliyimi, yoxsa insan əlinin yaratdığımı olduğunu ayırd etməkdə çətinlik çəkirsən. İnsan əlinin yaratdığı bu gözəllikləri görməyin kifayətdir ki, həmin əllərin tərifəlayiq olduğunu baxışlarınla anlada biləsən. Təbiətin və insan əməyinin birlikdə yaratdığı, onların vəhdətinin təzahürü olan bu gözəlliyi seyr etməkdən kimsənin gözü doymaz. Nəyin təbiətə, nəyin insana məxsus olduğunu müyyənləşdirməyin belə çətindir. Artıq yüz illərdir bunu şəhərin sakinləri və qonaqları görüb qiymətləndirməkdədir.

Yüz kilometrlərlə uzunluğu olan bu kanalların yaratdığı 90 ada, kanalların üzərindən keçən 1500-dən artıq körpü Amsterdama xüsusi bir sima bəxş edir. Şəhəri tor kimi saran 165 kanal olsa da, onların dördü əsas sayılır. Bu dördlüyə daxil olan kanallar bunlardır: Singel, Herengracht, Keizersgracht və Prinsengracht.

Bu dördlüyün birincisi Singel kanalıdır. 1428-ci ildən mövcuddur. İlk başdan şəhərin qərb səmtində xəndək rolunu oynayıb. Bu xəndək şəhərin sərhədi idi. Singel bir müddət Stedegracht, yəni Şəhər kanalı adını daşımışdır. Şəhərin durmadan böyüməsi, xüsusilə də 1585-ci ildə şəhərin genişləndirilməsinə start verilməsi ilə Singel Amsterdamın artıq daxili kanalına çevrilmiş, belə demək mümkünsə, kanal şəhərin içərisinə həbs edilmiş, şəhərsə azad quş misalı kanalın hüdudlarından kənara çıxmışdır. Qeyd edək ki, Amsterdamın genişləndirilməsi layihəsi ölkənin müstəqilliyini elan etməsindən cəmi dörd il sonraya təsadüf edir. Amsterdam buxtasından başlayan kanal Amstel çayına tökülür. XVI yüzillikdə bu kanal fransız kralı IV Henrinin şərəfinə Koningsgracht, yəni Kral kanalı da adlanmışdır.

Bu dörd kanalın digər üçü isə XVII əsrdə qazılıb. Bu əsrin Niderlandın tarixində Qızıl Dövr adlandırılmasını isə artıq bilirik. Kanalların qazılması təşəbbüsü ilə şəhərin o zamankı meri F.H.Utgensin çıxış edib. Onun bu təşəbbüsünü yerli dülgər H.Y.Staats və şəhərin geodezisti L.Y.Sink layihələndirərək, gələcək kanalların çertyojunu hazırlayırlar. Kanalların qazılmasına 1612-ci ildə başlanılıb. Hər üç kanal əvvəl Leidsergrachta qədər uzansa da, 1658-ci ildən onların Amstel çayınadək davam etdirilməsinə qərar verilib, bundan sonra kanalların üçü də bu çaya tökülüb.

Amsterdamın ildən ilə böyüməsi nəticəsində bu dörd əsas kanal şəhərin daxili sularına çevrilib. Amsterdam isə böyüdükcə böyümüş, bu proses bu gün də davam etməkdədir. Müasir məhəllələr, bir-birindən gözəl uca göydələnlər şəhərin yeni simasında xüsusi ştrixlər kimi diqqəti cəlb edir. Gündən günə böyüyən paytaxt Amsterdam artıq dünyanın nəhəng meqapolislərindən birinə çevrilib.

Kanallar bu gün şəhərin nəqliyyat yükünün müəyyən qədər azaldılmasında, şəhər sakinlərinin və şəhərə gələn turistlərin istirahətlərinin maraqlı keçməsində mühüm əhəmiyyət daşıyır. Kanallarda üzən irili-xırdalı gəmilər Amsterdama xüsusi görkəm verir. Tarixi məkanlarının, görkəmli şəxsiyyətlərə ucaldılmış heykəllərinin, hərəsi bir tarixi abidəyə bənzər evlərinin çoxluğuna baxmayaraq, kanallar bu şəhərə fərqlilik bəxş edərək, onun heç bir şəhərə bənzəməyən orijinal portretinin ortaya çıxmasına səbəb olur. Bu da özlüyündə milyonlarla turistin ilboyu Amsterdama axın etməsində müstəsna rol oynayır. Turistlərin və yerli sakinlərin gəmilərlə şəhər gəzintisinə çıxmasını hər mövsümdə müşahidə etmək olar. Quş uçuşundan baxıldıqda dörd əsas kanalın Amsterdamın belinə dolanmış qurşaqlara bənzədiyini, bu qurşaqlar arasında şəhərin əsas tarixi binalarını, iki-üç mərtəbəli yaşayış evlərini aydınca seçmək olar.

Bu kanalların arasının yeni binalarla, yeni küçə və meydanlarla dolması köhnə Amsterdamın necə ətə-qana gəldiyi barədə təsəvvür yaradır.

Bu kanallara baxdıqca onları ölkənin beyni və ya ürəyi hesab edilən Amsterdamı həyat enerjisi ilə təmin edən qan damarlarına da bənzədirdim.

Kanallar təkcə Amsterdamın deyil, Niderlandın digər şəhərlərinin də biçimlənməsində mühüm rol oynamış, az qala ölkənin ən yaddaqalan simvollarından birinə çevrilmişdir. Məhz kanallarının çoxluğuna görə Amsterdama "Şimalın Venesiyası" deyildiyini də yəqin unutmamısınız. Və bu, bizim Niderlandı kanallar ölkəsi kimi xarakterizə etməmiz üçün yetərli olsa da, mən sizin Niderlanda gələrkən, Utrext kanallarını görməkdən məmnun qalacağınıza da inanıram. Utrext kanallarının gözəlliyi, kanallardan seyr edilən şəhər mənzərələri, sahilboyu yaşıllıqların yaratdığı təkrarsız gözəlliklərin insana bəxş etdiyi xoş duyğuları ifadə etməyin nə qədər çətin olduğunu yalnız bunları öz gözləri ilə görənlər anlaya bilər. Məndən bu qədər, bundan sonrası sizə bağlı.

Kanallar Niderlandın həyat mənbəyidir. Şəhərləri dənizlə, ölkənin ayrı-ayrı bölgələrini bir-birilə, eləcə də Niderlandı öz sərhədlərindən kənarla bağlayan bu kanallar böyük qan damar sisteminə bənzəyir. Kanallardan tarixən müxtəlif məqsədlərlə istifadə olunmuşdur və bu, indi də davam etməkdədir. Kanallar düşmən hücumlarının qarşısının alınmasında müdafiə vasitəsi rolunu oynamışdır, artıq onun bu funksiyasına gərək qalmamışdır. Onlardan yeni torpaq sahələri almaq məqsədilə suların qurudulması üçün bir vasitə kimi də istifadə olunur. Kanalların əkin sahələrinin suvarılmasında önəmi böyükdür. Kanallar müxtəlif yüklərin daşınmasında əvəzsiz vasitədir. Kanalların Niderland iqtisadiyyatında oynadığı rolu anlatmaq üçün mən onlardan biri – Nordzekanal haqqında qısa məlumat verim. Bu kanal Amsterdam limanını Şimal dənizi ilə bağlayır, uzunluğu 27 kilometrdir. Hər il bu kanaldan 100 mindən çox gəmi keçir. Bu gəmilərin maksimal sututumu 90 min tondur. Ümidvaram ki, bu quru rəqəmlər sizə Niderlandın kanallar sisteminin əhəmiyyətini anlatmaqda yardımçı olacaq.

Sərnişin daşınmasında, yerli sakinlərin və turistlərin gəzinti və istirahət işində də kanalların xidmətindən fayda götürülür. Əcnəbilərin Amsterdama axın etmələrinin bir səbəbi də kanallarda gəmi turlarının təşkil olunmasıdır. İstirahətinə düşkün olan turistlər də unudulmayıb. Onların üzən gəmi-kafelərdə dincəlməsi, aclıqlarını-susuzluqlarını dəf etmələri üçün hər cür şərait yaradılıb. Puluna minnət, əlin cibində olsun.

Amsterdam kanallarında üzən evlərə də rast gələ bilərsiniz. Bu evlərin yaradılmasına İkinci Dünya müharibəsindən sonra başlanılıb. Mənzil çatışmazlığı belə bir yöntəmə əl atılmasına gətirib çıxarıb. Niderlandda hazırda mənzil çatışmazlığı problemi yaşanmasa da, bu evlər varlığını sürdürməkdədir. Belə evlərin müştəriləri günü-gündən artmaqdadır. Gəmi evlər kiçik olsalar da, daşınmaz əmlak bazarında ən bahalı mənzillərdəndir. Üzən evlər bahalığına görə müasir mənzillərlə rəqabət apara bilir. Belə evlərə sahib olanlar dövlətə ayrıca vergi də ödəyirlər. Bundan əlavə, üzən evlər vaxtaşırı xüsusi qayğı da tələb edir. Belə şıltaqlıqlarının olmasına rəğmən, üzən evlərə tələbat yüksək olaraq qalmaqdadır. Bu ekzotik evlərin müştərisi daim var. Və üzən evlər tikintisində hollandlar yeni bir ilkə də imza atmaqdadırlar. Reysveyk şəhərində amfibiya – suda-quruda mövcud olacaq evlər inşa olunmaqdadır. Rotterdamda isə hələlik 32 inəyə ev sahibliyi edən üzən ferma və üzən quşçuluq təsərrüfatı istifadəyə verilib. Bu da dünyanın holland möcüzələrindən biri.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## HAZİRA



(əvvəli ötən sayda)

Haziranın yaradıcılığı yavaş-yavaş demokratik ritmlərə keçdi. Doqquz yüzüncü illərdən o, sosial məişətin misilsiz əksetdiricisini yaratdı. O, bu baxımdan şəhər xalq şairləri arasında ən yüksək yeri tutur. Haziranın 1892-ci ildə "İveriya"da odövrkü ictimai ağrılar barədə bir neçə yazısı da yerləşdirilmişdir. Bizim aşığı hər yerdə və həmişə zəhmətkeşin taleyi narahat edir:

***"Hardadırsa, işıqlanacaq,***
***Qalx, ey fəhlə, bir bax,***
***Gözəl günə çıxacaqsan,***
***Yatma sən, xoruldama sən,***
***Ey fəhlə, ey fəhlə, sən!"***

Haziranın bu mahnısını, məncə, hamı yaxşı xatırlayır *(Bu melodiyanı A.Ohanezişvili (Bax: "Teatr və həyat", 1924-cü il, № 12) və K.Potsxveraşvili (Bax: "İnqilabın mahnıları", 1923-cü il, səh. 38) notlara köçürmüşdür).* Hazira müxəmməs formasına xəyanət etməyib. Onun bütün şeirləri mahnı üçün – hər bir xanasının son sətri ilk xananın sonuncu sətrinə əks-səda verən müxəmməs qaydasında yazılmışdır. Nəğməkar şeirin başlanğıcının iki sətrini, mahnı zamanı, hər bir xananı bitirəndən sonra təkrar edir, bununla, sanki yetim qoyulmuş ritmi qeyd edir və mahnı həddindən artıq məlahətləşir. Bu cür fəndlə müğənni doğrudan da öz məqsədinə çatır: Burada bütün xanaların əsas damarı son sətrə keçirildiyindən fikrə qarşı məramın tabe olunması mövcuddur, şeir daha çox sözü qoparılmış kimi çıxır:

***"Qara dənizin sahilində bizim evlər,***
***Qədimdən qədimdir, yeni deyillər,***
***İndi orda durur bizim qudalar.***
***Bizim günahımızdır, itirdik izi,***
***Halımız daha yoxdur, ixtiyarımızı bizdən aldılar.***

***Atamız öldü, qaldıq yetim olaraq,***
***Anam başqasına getdi ocağını qalamaq üçün,***
***Bizim üçün iş öz qaydasında getmir.***
***Tale üzümüzə gülmədi, evimiz yıxıldı,***
***Atımız yıxıldı, daha qalxa bilmir.***

***Nə vaxt olacaq ki, yaxşı günümüz olsun,***
***Bizim ev və qapı-baca bizə qismət olsun,***
***Hazira heç kimdən yan durmadı.***
***Düşüncələr əzab verir, güc gəlir,***
***Özünü qurban verir, onun üçün ölür."***
*(Bax: "Müxtəlif yeni şeirlər", 1894-cü il, səh. 3).*

Burada hər bir xananın ilk üç sətri və son xananın iki sətri müxtəlif templə nəzmə çəkilib və orjinal ölçü ilə gedir. Ritmlərin özləri də örtülüdür və ikinci qövslə çarpazlaşmır.

***"Bizim günahımızdır, itirdik izi, halımız daha yoxdur, ixtiyarımızı bizdən aldılar.***
***Bağçada qızılgüllər yetişəcək, ürəyimdə dərdlərim daha olmayacaq!"***

Bu cür quruluş, əlbəttə, fars poeziyasının təsiri ilə əmələ gəlmişdir. Mahnı zamanı son sətirlərin qılıncı qızıl kimi ağır gəlirdi və gümüş kimi cingiltili idi.

Bizim köhnə ədəbiyyatımız fars vəznində yetişib. Sanki bütün gürcü şairlər müxəmməs üsulunda da şeirlər yazırdı: Şeir ki, mahnıdır və bizim ozanlar da oxuyurdular, mahnı ilə musiqi və misilsiz deyişmələr yaradırdılar: "qafi" (qafi -şeir növlərindən biridir, mahnıda qara sevdalı havadır - Müəllif), "müstəzad, "cinas", müxəmməz və sair.

Ən populyar "müxəmməz" və "qafi" idi.

"Müxəmməs" Platon İoselianinin izah etdiyinə görə, "canlı və lakonik sözlərdən qurulub. O, çevik, sıxılıb şirəsi çıxarılmış şeir formasıdır" *(П.Иоселиани: "Путевые записки от Тифлиса до Мцхеты", 1871-ci il, səh. 64).* "Qafi" "insanın mənəvi xəstəliyinin və qəm-qüssəsinin nəfəsliyinin küləyə verilməsi üçün oxunurdu. Yazı, Oxu Cəmiyyətinin əlyazmalarında çariça Məryəmin çoxlu mahnı üçün olan şeirləri qorunub saxlanılır. Bir şeirin yazısından məlum olur ki, "həbs olunanda, kədərə qərq olmuş çariça Məryəm bu qafini onda deyib" (Bu əlyazmanı mərhum D.Karicaşvili mənə göstərdi. Əlyazma hələlik kataloqa yazılmamışdı).

Lap əvvəllər çariça Ketevan cəzadan öncə "əlif-lam mədhini şeirlə qafi avazında dedi və bununla İranda olan gürcülərin həbsi ifadə olunub. An – ondan şikayət edirəm, ban – qaranlıqda oturan, qan – qəlbi dolmuş, don – ağlamış" *("Gürcülər İranda", 1907-ci il, səh. 5, 7).*

Elə yaxın dövrün şairləri də (Q.Orbeliani, Akaki, Raf. Eristavi, Nino Orbeliani, Luka İsarlov, "Siskareli"-Dim. Beriyev və sair) yaradıcılığının antraktı zamanı müxəmməs sayağı şeirlər də yazırdılar. Q.Orbelianinin gözəl müxəmməsini yada salın:

***"İstəyirsən lap yatım, hər halda ruhumda oturubsan,***
***Açıram gözümü, kirpiklərim üstündə oturubsan...*** *("Bu şeir ilk dəfə əyyaş sayağı müxəmməs adlanıb (Bax: "Gürcüstan xəbərçisi", 1863-cü il, № 11).*

Corc Sand oğlan paltarı geyinərək, əlində papiros gəzəndə tənqidçilər onu "Parisin poheması" adlandırırdılar. Bizim Nino Orbeliani, halbuki, kübar qadın idi, Abaşidzenin qızı və Cambakur Orbelianinin gəlini idi, lakin hər halda ictimaiyyətin dedi-qodusuna baxmayaraq Tiflisin əyyaş bohemaçılarına belə bir müxəmməs həsr edirdi:

***"Bu gün ürəkdən istəyirəm, qardaşlar, sizinlə şənlik edim,***
***Di, Kaplo, bardaq ilə şərab ver,***
***Bizim sayağı Çarxların yanında Ortacalada,***
***İstər elə bun gün sal məni xatabalaya.***
***Niyə bağırırsan, oğlan, həmişə şəhərdə,***
***Bir dəfə oturaq kölgə altında, yaşıl otluqda...***
***Kampaniya, var olsun, içək,***
***Bu kefdə istərsə də canımızı verək".***
və sair *(Nino Orbeliani, "Şeirlər dəftəri", 1905-ci il, səh. 33).*

Akaki? Akaki özünün gəncliyi dövründə yazırdı: "Köhnə kitabları mən də oxumuşam, Gürcüstanda olmuşam və yox, əgər ki, Besikinin və onun həmkarlarının yazdığı şeirlərini eşitmişəm, yenə də mənim özüm zümzümə etmişəm. Vaxt var idi ki, onun "Tano Tatano", "Qara qəfəsdə oturanlar" və "Sevda bağına girdim" şeirləri məni heyran edirdi, indi gizlətmirəm, o şeirlər asudə insanın şüuruna ləzzət verir *(Nino Orbeliani, "Şeirlər dəftəri", 1905-ci il, səh. 3).*

Akaki bu sətirləri yazanda iyirmi beş yaşında gənc idi, bir neçə on illərdən sonra isə Akaki də "vaxt tapdı" ki, bu mahnı üçün şeirlərin müəlliflərini təqlid etdi və lətafətli axıcılığı olan müxəmməs yaratdı: 1. "Mənim başım, bəxtin yoxdur", 2. "Yoxuş-yoxuş mən gedirdim yavaşca", 3. "Ey dərdlərə əlac edən, mənim ürəyimin telisən", 4. "Tfu, mənim ulduzuma və mənim bəxt yazıma" və sair *(Bu sonuncu şeir ilk dəfə "müxəmməs" adlanırdı (Bax: İvliane Xetereli tərəfindən nəşr olunan "Knari"yə, Kutaisi, 1896-cı il, səh. 149).*

1893-cü ildə Kutaisidə Akakinin mahnı üçün "Salamuri" şeirlər toplusu nəşr olundu ki, burada da bu cür başlıqlar doludur:

Səh. 11. "Şikəstə" (Necə ki, xəstənin dərdinə şərik olmaq),

Səh. 15. "Müxəmməs" (Ömrün yarı yolunu keçdim),

Səh. 22. "Kintauri" (Bilsən mənim qəlbimin dərdlərini),

Səh. 37. "Qızılgül avazında" (Mən çonqurini onun üçün istəyirəm).

Burada Akakinin "şikəstələrin", "sırtıq söhbətlərin" dolu olduğu pyesi ("Kinto") barədə daha heç nə söyləmirəm:

1."Sevgilimin eşqindən,
Şərab içmişəm mən"...

2."Mən də bir kintoyam,
Mənim də sevgilim var"...

3."Knyaz, hirslənirsən?
Başında sərçələr olan,
Bir yaxşısını vuraram,
Və rahatlanarsan" *(Bax: Akakinin toplusu, 1889-cu il, № VII, səh. 69, 70, 74).*

Akaki Haziranı sevirdi. "Suliko"nu Gürcüstanın qəsəbə və kəndlərində ilk dəfə Hazira yaydı. Hazira Akakinin mahnı üçün müxəmməsləri barədə sonralar yazır: "Akaki və Sayat-Novanı xalq eyni cür sevirdi, hər ikisi xalqın qulu və xidmətçiləri idilər. Akaki Sereteli ortaya çıxanda həmin dövrlər aşıqlıq artıq sıxışdırılırdı və köhnə öz yerini yeniyə güzəştə gedirdi. Ozanın böyük istedadı bitib tükənməyən yerdən çıxan bulaq kimi qaynayırdı və aşıb-daşırdı. Akaki köhnə səslərə fikir verdi və saysız-hesabsız qiymətli əşyaları yazmağa, biçməyə, tikməyə və dəzgah üzərində düzməyə başladı, amma bədbəxtlikdən alverçi heç yerdə görünmürdü" *(Hazira, "Akaki və Sayat-Nova" ("Teart və həyat", 1916-cı il, № 46 və mənim "Sayat-Novam")).*

Və budur, bu cür "alverçilər" aşıqlar idilər ki, bunlar da Haziranın başçılığı ilə bu əşyalara "müştərilər" buldular, havaları qaydaya saldılar və böyük şairlərin poeziya nümunələrini də camaat arasında yaydılar. "Hansı bir yazıçı, hansı bir mürəbbi, hansı bir məruzə, hansı bir moizəçi bizim şirin çalğımızla və mahnımızla camaata təlqin etdiyimizi edə bilərdi".

Odövrkü həyat çox primitiv idi. Bizim indi təsəvvür etdiyimiz şəkildə də heç bir ağlabatan əyləncə mövcud deyildi. Yeganə olaraq gürcü teatrı idi və bu teatrda da antraktlarda Haziranın dəstəsi çalırdı. Burada adi mahnılardan başqa pyesin müvafiq şeirlərini də oxuyurdular və Haziranın "qəlbi sınmış sözləri" eşidilirdi:

***"Yad vüqarlı, təkəbbürlü soyadından***
***Mənim təvazökar soyadım yaxşıdır,***
***Onların sarayının çox gözəl qapısından***
***Bizim daxmanın çubuq qapısı yaxşıdır.***

***Mən gəzirəm öz babamın dolaşdığı yerdə,***
***Gəzmərəm başqasının yolu ilə, izi ilə,***
***Yad soyadın xoşbəxt canlısından***
***Bizim bədbəxt ölümüz yaxşıdır.***

***Mənə nə xeyri başqasının pulundan və dövlətindən,***
***Əgər kişiyəmsə və ağlım başımdadırsa,***
***Yadın soyadının dənizi niyə xoşuma gəlsin,***
***Bizim bulağın bir şehi yaxşıdır".*** *(Bax: "Canavarlaşmış quzu", 1902-ci il, səh. 25).*

*(davamı gələn sayda)*

*Gürcü dilindən tərcümə edən:*
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com “იენი იოლი” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 31 OKTYABR 2021-Cİ İL №020 (143)

# MƏKTƏB DİREKTORLARI VƏ MÜƏLLİMLƏR SİYASİ AKSİYALARDA İŞTİRAK ETDİKLƏRİNƏ GÖRƏ 2000 LARİ CƏRİMƏ OLUNACAQLAR



Məktəb direktoru, müəllim, məktəb və uşaq bağçası nümayəndəsinin iş saatlarında siyasi aktivlikdə iştirak etməsi qanunla qadağandır. Qanuna əsasən, qeyd olunan qaydanı pozanlar 2000 lari cərimə ödəməlidirlər. Bu haqda Gürcüstanın Seçki Məcəlləsində ətraflı qeyd olunub.

Bildiyimiz kimi, seçkiqabağı kampaniya (təbliğat, təşviqat) səsvermə günündən 60 gün əvvəl başlayır. Siyasi partiyalar və seçki subyektlərinin namizədləri bərabər hüquqlardan istifadə edirlər və qanunla tətbiq edilmiş qaydada bərabər öhdəlik daşıyırlar.

Seçki Məcəlləsinə görə, dövlət məmurlarının, ictimai hüquqi şəxsin əməkdaşlarının, dövlət və ya bələdiyyə tərəfindən təsis edilmiş qeyri-sahibkar (qeyri-kommersiya) hüquqi şəxsin əməkdaşlarının, dövlət və ya bələdiyyənin təsis etdiyi məktəbəqədər təhsil müəssisələrinin, ümumtəhsil müəssisələrinin direktorlarının, dayə-pedaqoqların, dayələrin, müəllimlərin, orada işləyən digər şəxslərin iş əlaməti ilə toplanması yolverilməzdir.

**İstənilən şəxsin seçkiqabağı təşviqat aparmaq və təşviqatda iştirak etmək hüququ vardır, bunlardan başqa:**

İctimai hüquqi şəxs əməkdaşları (ali və peşə təhsil müəssisələri, incəsənət müəssisələri, dini təşkilatlar və Gürcüstan Vəkillər Asossiasiyasının əməkdaşları), dövlət və ya bələdiyyə tərəfindən təsis edilmiş qeyri-sahibkar (qeyri-kommersiya) hüquqi şəxs əməkdaşları, dövlət və ya bələdiyyənin təsis etdiyi məktəbəqədər təhsil və tərbiyə müəssisələrinin, ümumtəhsil müəssisələrinin direktorlarının, dayə-pedaqoqların, dayələrin, müəllimlərin, orada işləyən digər şəxslərin – iş saatı ərzində, yaxud vəzifə səlahiyyətlərini icra edən zaman.

Seçkiqabağı təbliğatda və təşviqatda həmin qanunun tələblərini pozaraq iştirak etmək 2000 lari cəriməyə səbəb olacaq.

*Mənbə: etaloni.ge*

# GÜRCÜSTAN COVID-19 PASPORTUNUN TƏTBİQİNƏ HAZIRLAŞIR



“Gürcüstanda COVID-19 pasportu mütləq tətbiq olunacaq”. Bunu ölkənin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri, baş epidemioloq Amiran Qamkrelidze deyib.

Onun sözlərinə görə, sənədin qüvvəyə minəcəyi dəqiq tarix hələ məlum deyil: ““Yaşıl pasport”la bağlı müxtəlif yanaşmalar var. Gürcüstanın bu yanaşmalardan hansının üzərində dayanacağı barədə qərarı Dövlət Qurumlararası Koordinasiya Şurası qəbul edəcək”.

Gürcüstanın səhiyyə nazirinin müavini Tamar Qabunia öz növbəsində bildirib ki, COVID-19 pasportunun tətbiqi məsələsi üzərində mütəxəssislərlə birgə iş aparılır: “Koordinasiya Şurasının bugünkü (20 oktyabr) iclasından sonra bütün risklər nəzərə alınacaq və ictimaiyyət sənədin tətbiqi barədə məlumatlandırılacaq”.

Qeyd edək ki, “yaşıl pasport” koronavirus əleyhinə vaksinasiyanı təsdiqləyən sənəddir və insanların qapalı məkanlara daxil olması üçün bir sıra ölkələrdə tələb edilir.

# GÜRCÜSTANDA NATO STANDARTLARINA UYĞUN AVTOMAT SİLAHLARIN İSTEHSALINA BAŞLANILIB



Gürcüstanın Müdafiə Nazirliyinin nəzdindəki “Delta” hərbi elmi-texniki mərkəzdə NATO standartlarına uyğun GI - 4 (5.56) avtomatlarının istehsalına başlanılıb.

Müasir silahların istehsalı oktyabrın 28-i açılan Gürcüstan-İsrail birgə müəssisəsində həyata keçiriləcək.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və müdafiə naziri Cuanşer Burçuladze müəssisəyə baş çəkib və istehsal prosesinə baxış keçiriblər.

Müasir avadanlıqla təchiz edilmiş müəssisənin buraxacağı silahlar həm Gürcüstanın müdafiə qüvvələri, həm də ixrac üçün nəzərdə tutulub.

Gələcəkdə digər silah-sursatların da istehsalı planlaşdırılır.

# BU İL ÖLKƏDƏ 10 % İQTİSADİ ARTIM GÖZLƏNİLİR



Gürüstanın Milli Bankı builki və 2022-ci il üzrə iqtisadi artım proqnozuna dəyişiklik edib.

Bank 2021-ci il üçün iqtisadi artım proqnozunu 8,5 %-dən 10 %-dək artırıb.

Milli Bank gələn il Gürcüstanda 5 %-lik iqtisadi artım gözləyir. Əvvəlki proqnozda bu göstərici 4 % olub.

Bankdan bildirilib ki, proqnozların yaxşılaşdırılması bir sıra faktorlarla, həmçinin yüksək kreditləşmə səviyyəsi və hökumətin sabit qalmaqda davam edən fiskal siyasəti ilə bağlıdır.

# TURİZM GƏLİRLƏRİ ARTIB



Ölkənin Milli Bankının analitik hesabatına əsasən, bu ilin yanvar-sentyabr aylarında Gürcüstan turizmdən 865,8 milyon ABŞ dolları gəlir əldə edib ki, bunun da 161,9 milyon dolları ötən ayın payına düşüb.

Sənədə görə, sentyabrda ölkənin turizm gəlirləri ötən ilin eyni dövrünə nisbətən 10,3 dəfə artıb.

Ötən ay Gürcüstan 209,6 min nəfəri turist olmaqla 223,5 min nəfər beynəlxalq ziyarətçi qəbul edib. Bu, illik müqayisədə 4,3 dəfə çoxdur.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.